# Risklərin dəyərləndirilməsi

Fənn: Risklərin dəyərləndirilməsi
Səviyyə: Baza, ümumi əsaslar
Müddət: 5 gün
Təlimatçı: magistr Namiq Abbasov

Bu intensiv beş günlük baza kursları risklərin dəyərləndirilməsinin əsaslarını özündə cəmləyir.
Mövzular, risk nəzəriyəsinin müasir vəziyyətini, eləcə də xronoloji tarixini, risklərin idarə olunması sisteminin beynəlxalq standartlarını və neftqazçıxarma müəssisələrində risklərin idarə edilməsinin metodoloji aspektlərini əhatə edir.
Kursun iştirakçıları, risklərin aşkarlanması, təsnifləşdirilməsi və dəyərləndirilmə əsaslarının zəruri biliklərini öyrənib əldə edəcəklər.

**Nəzərdə tutulur:**

Mühəndislər, layihəçilər və texnik-operatorlar, istismar sistemlərində, layihələndirmədə və s. fəal iştirak edənlər üçün nəzərdə tutulub.

**Öyrəniləcək material:**

- Risklərin idarə olunması nəzəriyyəsinin müasir vəziyyəti;
- Risklərin idarə edilməsi sisteminin ümumi xarakteristikası;
- Risklərin idarə olunması sisteminin beynəlxalq standartları;
- Risk və qeyri müəyyənlik şəraitində qərarların qəbulu;
- Neft-qaz sənayesində əsas risklərin təsnifləşdirilməsi;
- Boru kəmərlərinin layihələndirilməsi timsalında risklərin təhlili;
- Risklərin idarə olunması mərhələləri.

**Kursun tərkibi:**

- Risklərin idarə olunması sisteminin tarixi haqqında qısa məlumat;
- Risklərin idarə olunması sisteminin məqsəd və vəzifələri;
- Neft-qazçıxarma müəssisələrində risklərin idarə edilməsinin metodoloji aspektləri;
- Neft-qazçıxarma müəssisələrində risk növləri;
- Risklərin risk yaradan amillər üzrə təsnifləşdirilməsi;
- Risklərin aşkarlanması və qiymətləndirilmə üsulları;
- Risklərin idarə olunması üsulları;
- Risklərin idarə olunması üzrə praktiki tövsiyyələr;
- Neft-qaz sənayesində təhlükəsiz istismar və risklərin idarə olunması barədə (Boru kəmərlərinin timsalında)
- Nəticələrin monitorinqi və risklərin idarə olunması sisteminin səmərəliliyinin qiymətləndirilməsi.

**Tədrisi aparan təlimçi haqqında:**

Namiq Alik oğlu Abbasov, 2001-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının (ADNA) Mühəndis İqtisadiyyatı və İdarəetmə fakültəsinin “Marketinq neft emalı neftkimya sənayesində” ixtisası üzrə bakalavr diplomuna yiyələnmişdir. 2004-cü ildə ADNA-nın həmin ixtisas üzrə magistr dərəcəsini almışdır.

1998-ci ildə Azərbaycan Milli Aerokosmik Agentliyində mühəndis kimi iş fəaliyyətinə başlamışdır. 2005-ci ildən isə “Dənizneftqazlayihə” DETLİ-də «İstehsalın iqtisadiyyatı və təşkili» laboratoriyasında mühəndis vəzifəsində çalışmışdır. 2007-ci ildə SOCAR-ın “Elmi Tədqiqatlar” İnstitutunda “Neft-qaz kompleksinin iqtisadi və sosial problemləri” şöbəsində böyük elmi işçi vəzifəsində işləmişdir. 2009-cu ildən isə SOCAR-ın “Neftqazelmitədqiqatlayihə” institutunun (NQETLİ) “Layihələrin iqtisadi qiymətləndirilməsi” şöbəsində Risklərin idarə edilməsi üzrə rəis müavini vəzifəsinə təyin olunmuşdur.

2011-ci ildə NQETLİ-da yaradılmış “Risklərin idarə olunması” şöbəsində rəis vəzifəsinə təyin olunmuş və hal-hazırda bu vəzifədə çalışır.

O, Bakıda “İSO” 9001-2000” tələblərinə uyğun Keyfiyyətin İdarəetmə sisteminin praktiki tətbiqi və daxili audit, “İnformasiya və innovasiya: beynəlxalq təcrübə və müasir yanaşma”, “Risklərin idarə olunması praktikası ilə bağlı məsələlərin baxılması”, Risklərin idarə edilməsi sistemi çərçivəsində “OHSAS 18001:2007- Əməyin Mühafizəsi və Təhlükəsizliyinin İdarəetmə Sistemi”, “Vaxtın düzgün idarə olunması” və s. sığorta sahəsində təlim və kurslarda iştirak etmişdir. Neft sənayesində işlədiyi 10 ildən artıq müddət ərzində bir necə elmi-tədqiqat işlərinin məsul icraçısı olmuş və 10-dan artıq elmi məqaləsi dərc etdirmişdir.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu
AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a